# Qüvvət elmdədir...

**Bu il noyabrın 26-da Konqres Mərkəzində Bakı Dövlət Universitetinin 100 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edərək parlaq nitq söyləyib. Dövlətimizn başçısının proqram xarakterli nitqi ölkə ictimaiyyətində dərin məmnunluq hissi doğurub. Bakı Dövlət Universitetinin dosenti, tarix üzrə fəlsəfə doktoru Atamoğlan Məmmədli bu barədə fikir və düşüncələrini bizimlə bölüşərkən dedi:**






– Bu günlərdə Bakı Dövlət Universitetinin çoxsaylı professor, müəllim və tələbə heyəti əsl bayram əhval-ruhiyyəsi yaşayır. Axı, Azərbaycan təhsilinin flaqmanı sayılan bu ali təhsil ocağının 100 yaşı tamam olur. Xalqımızın müdrik lideri Prezident İlham Əliyevin mərasimdə iştirak edərək çıxış etməsi sevincimizi birə- onqat artırıb.

Cənab İlham Əliyev qeyd etdi ki, xalqımızın siyasi, ictimai, mədəni həyatında Bakı Dövlət Universitetinin danılmaz xidmətləri olmuşdur. Yüz il ərzində universitetin məzunları ölkəmizin hərtərəfli inkişafına öz dəyərli töhfələrni vermişlər və bundan sonra da verəcəklər.

Azərbaycan xalqının ümummilli lideri, müasir Azərbaycanın qurucusu Heydər Əliyev Bakı Dövlət Universitetinin məzunu olmuşdur. Məhz bu dahi siyasətçinin Azərbaycana rəhbərlik etdiyi hər iki tarixi dönəmdə ölkəmizdə elmin və təhsilin sürətli inkişafına böyük önəm verilmişdir. Təqdirəlayiq haldır ki, Azərbaycanda elmə, təhsilə diqqət və qayğı Prezident İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilir.

Bu günlərdə dahi şair Nizami Gəncəvinin məşhur misraları tez-tez yada düşür:

**“Qüvvət elmdədir,**
**başqa cür heç kəs,**
**Heç kəsə üstünlük**
**eləyə bilməz”.**

Əminəm ki, Bakı Dövlət Universiteti xalqımızın və dövlətimizin inkişafına yeni-yeni töhfələr verəcək.

***Söhbəti yazdı:***
***M.HACIXANLI, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 29 noyabr. S. 9.